

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 117 (23.529)

22 iyul 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


Rəsmi xronika

İyulun 21-də Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təqdimat mərasimində iştirak ediblər.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma məlumat verib ki, dövlət tərəfindən bu binada şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 62 mənzil verilib. Bu mənzillərin 42-si Qarabağ müharibəsi əlilləri, 20-si isə şəhid ailələri üçün nəzərdə tutulub.

Təqdimat mərasimində çıxış edən Prezident İlham Əliyev deyib: – Əziz dostlar, bu gün sizin həyatınızda çox əlamətdar bir gündür. Siz dövlət tərəfindən mənzillərlə təmin edilirsiniz. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Mən indi sizin yeni yaşayış yerinizlə tanış olmuşam. Çox gözəl təəssürat bağışlayır, müasir standartlara cavab verən ev tikilibdir, mənzillər də çox genişdir və tam təmirlidir. Yəni, sadəcə olaraq, mebeli gətirib yaşamaq mümkün olacaqdır. Bu, dövlətin sizə növbəti diqqətinin təzahürüdür.



## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyası keçirilib





İyulun 21-də altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyası keçirilmişdir.

Sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilmişdir.

1. 2020-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları

2. Cari məsələ

Sessiyada gündəlikdə duran birinci məsələ ilə bağlı çıxışlar olmuşdur.

Naxçıvan Muxtar Respublikası Baş Nazirinin birinci müavini Elşad Əliyev demişdir ki, aqrar sahədə həyata keçirilən kompleks tədbirlər kənd təsərrüfatının davamlı və dinamik inkişafını təmin etmiş, "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti istifadəyə verilmişdir. Ali Məclis Sədrinin 17 fevral 2020-ci il tarixli Sərəncamı ilə "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı" qəbul edilmiş, Babək Rayon Baytarlıq İdarəsi və laboratoriyaları üçün yeni bina tikilmiş, 23 süni mayalanma məntəqəsi lazımi avadanlıqlar, yedəkli motosikletlərlə təmin olunmuşdur. Yeni yaradılan Süni Mayalanma Mərkəzi baytarlıq məntəqələrini yüksək məhsuldarlığı olan törədici toxumla təmin edəcəkdir. Muxtar respublikada cari ilin məhsulu üçün 36 min 879 hektar sahədə taxıl əkini aparılmışdır. Artıq 35 min hektardan artıq sahədə biçin aparılmışdır. Bu il tədarük məntəqələri məhsul istehsalçılarından buğdanın hər kiloqramını 38, arpanın hər kiloqramını 35, qarğıdalının isə hər kiloqramını 40 qəpikdən qəbul edir. Hesabat dövründə kənd təsərrüfatının inkişafı ilə bağlı banklar və kredit təşkilatları tərəfindən 5 milyon 598 min 400 manat kredit verilmiş, məhsul istehsalçıları 9 min 8 ton mineral gübrə ilə təmin olunmuş, 177 yeni kənd təsərrüfatı texnikası alınmış, torpaq mülkiyyətçiləri tərəfindən 2 min ton kartof toxumu və tələb olunan miqdarda gübrə, dərman preparatları gömrük rüsumları ödənilmədən idxal olunmuşdur. Arıçılığın inkişafı da davam etdirilmiş, dövlət proqramının uğurlu icrası nəticəsində arı ailələrinin sayı 98 min 400-ə çatdırılmışdır. Yaz iməciliklərində muxtar respublika ərazisində 282 hektar sahədə yaşıllaşdırma, meşəsalma, meşəbərpa, toxumla əkin, 71 hektar sahədə isə bərpa əkini aparılmışdır. Hazırda muxtar respublikada 5 min 157 hektar meyvə bağları mövcuddur ki, bunun da 4 min 600 hektarı barverən bağlardır. Tingçilik kompleksi və "İqlim otağı"nda ötən dövrdə 19 min 450 ədəd müxtəlif növ ağac, gül, bəzək bitkiləri yetişdirilmişdir. Torpaqların su təminatı da diqqətdə saxlanılmış, 1070 hektar sahədə qapalı suvarma şəbəkəsinin və 400 hektarı suvarma suyu ilə təmin edəcək yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi davam etdirilmişdir. 2020-ci ilin ötən dövründə muxtar respublikada diri çəkidə 12 min 669 ton ət, 50 min 225 ton süd, 859 tondan artıq yun, 55 milyon 296 min ədəd yumurta istehsal edilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,5, süd istehsalı 1,6, yun istehsalı 1,3, yumurta istehsalı isə 2,3 faiz artmışdır. 2020-ci ilin ötən dövründə kənd təsərrüfatının ümumi məhsulu 139 milyon 887 min manat təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çoxdur. Kənd təsərrüfatının dinamik inkişafı ixracın həcminə də müsbət təsir göstərmiş, nəticədə, bu ilin 6 ayında muxtar respublika üzrə 40 milyon 629 min 800 Amerika Birləşmiş Ştatları dolları dəyərində kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edərək demişdir ki, muxtar respublikada bu ilin birinci yarısında iqtisadi fəaliyyətin müxtəlif sahələrində 12-si özəl investisiyalı olmaqla, 81 istehsal və xidmət sahəsi istifadəyə verilmişdir. Yeni yaradılan sahələrdə 352 iş yeri açılmışdır. Hazırda müxtəlif xidmətlər üzrə 38 sahənin yaradılması davam etdirilir. Cari ilin ilk yarısında Sahibkarlığın İnkişafı Fondu tərəfindən 62 layihənin maliyyələşdirilməsinə 7 milyon 42 min manatdan çox güzəştli kredit ayrılmışdır ki, bunun da 6 milyon 236 min manatı sənayenin, 806 min 500 manatı kənd təsərrüfatının payına düşmüşdür. Sahibkarlıq fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması, onların hüquqlarının müdafiəsi daim diqqətdə saxlanılmış, xüsusi fəaliyyət növləri üzrə 748 lisenziya, dəyəri 652 min 200 manat olan layihəyə təsdiqedici sənəd verilmişdir. Həmçinin ixracın təşviqi və sənaye məhsullarının ixracı zamanı çəkilən xərclərin bir hissəsinin qaytarılması mexanizmi çərçivəsində yerli ixracatçılara 11 ixrac əməliyyatı üzrə 21 min 150 manatdan çox məbləğdə ixrac təşviqinin ödənilməsi təmin edilmişdir. Ötən dövrdə 27 heyvandarlıq təsərrüfatının yaradılması, 14 heyvandarlıq təsərrüfatının genişləndirilməsi, tutumu 2700 ton olan 2 soyuducu anbarın yaradılması, bir soyuducu anbarın genişləndirilməsi başa çatdırılmış, 8 heyvandarlıq təsərrüfatının yaradılması, 3 heyvandarlıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir. Muxtar respublikada istehsal olunan vafli məhsulları, tütün məmulatları, sement, travertin, mərmər, mebel məmulatları, mineral sular 11 ölkəyə ixrac olunmuşdur. Ənənəvi ixrac bazarları ilə yanaşı, muxtar respublikada fəaliyyət göstərən şirkətlər tərəfindən Oman Sultanlığı, Belçika Krallığı kimi ölkələrə də məhsul ixrac edilmiş, ərzaq məhsulları nüfuzlu beynəlxalq qida sərgilərində nümayiş olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov çıxış edərək demişdir ki, 2020-ci ilin birinci yarım ilində muxtar respublikada Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin xətti ilə 61 milyon 966 min 400 manat həcmində inşaat işləri yerinə yetirilmişdir ki, bunun da 57 milyon 559 min manatını və ya 92,9 faizini tikinti-quraşdırma işləri təşkil etmişdir. Bu ilin ötən dövründə 2 məktəb binası, 1 musiqi məktəbi, 2 səhiyyə müəssisəsi, 2 kənd mərkəzi, 3 xidmət mərkəzi, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının 3-cü Sərhəd Dəstəsi üçün kompleks, Ordubad rayonunda Dəstə Radio-Televiziya Ötürücü Stansiyası, Badamlı zavodu, Culfa şəhərində Rabitə Evi istifadəyə verilmişdir. Naxçıvan şəhərində 7 mərtəbəli 6 mənzilli yaşayış binasının tikintisi və 2 yaşayış binasının yenidən qurulması başa çatdırılmışdır. Hazırda Naxçıvan şəhərində 44 mənzilli, Şərur şəhərində 40 mənzilli, Ordubad şəhərində 28 mənzilli, Culfa şəhərində 18 mənzilli, Şahbuz rayon "N" saylı hərbi hissədə 44 mənzilli və Şahbuz şəhərində 40 mənzilli yaşayış binalarının tikintisi davam etdirilir. Ötən dövrdə Naxçıvan şəhər buzxanası, Ordubad rayon Darkəndində su dəyirmanı, Yusif Küseyir oğlu türbəsi, Şahtaxtı hamamı bərpa olunmuş, Naxçıvan şəhərində Sahil Parkı istifadəyə verilmişdir. Hazırda Naxçıvan şəhərində məscidin, Şərur rayonunda Mədəniyyət Sarayının, Şərur və Sədərək rayonlarında Bayraq meydanlarının, Babək şəhərində bazarın, Şahbuz rayonunun Ağbulaq kəndində Xizək Mərkəzinin, Ordubad və Tivi Su Elektrik stansiyalarının tikintisi davam etdirilir. Muxtar respublikada yol nəqliyyat kompleksinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində də ardıcıl tədbirlər görülmüş, Culfa-Ordubad magistral avtomobil yolunun, Şərur rayonunun Qarxun-Muğancıq-Mehrab-Məmmədsabir, Ordubad rayonunda Xanağa-Ağrı-Dizə-Vənənd-Darkənd avtomobil yollarının, Culfa şəhərində avtomobil yolunun yenidən qurulması başa çatdırılmışdır. Tikintisi həyata keçirilən obyektlərin maya dəyərinin aşağı salınması, yerli istehsal materiallarından istifadəyə üstünlük verilməsi, tikintidə təhlükəsizlik və əməyin mühafizəsi tədbirləri diqqətdə saxlanılmışdır.

Ardı 2-ci səhifədə

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2020-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları barədə məruzə etmişdir **(Ali Məclis Sədrinin məruzəsi qəzetin bugünkü nömrəsində dərc olunur).**

Sessiyada cari məsələyə – Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının əməkhaqlarının artırılmasına da baxılmışdır. Ali Məclisin Sədri demişdir ki, son dövrlərdə muxtar respublikanın sosial-iqtisadi inkişafı və əməkhaqlarının mərhələlərlə bir neçə dəfə artması bu məsələyə də baxılmasını zəruri etmişdir. Bütün bunlar əsas götürülərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının əməkhaqlarının artırılması ilə bağlı qərar layihəsi hazırlamışdır.

Qərar layihəsi oxunmuş və səsə qoyularaq qəbul edilmişdir.

Ali Məclisin Sədri 2020-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında əməyi, sabitliyin və təhlükəsizliyin qorunmasında xidməti olanlara təşəkkürünü bildirmiş, qarşıdakı dövrdə inkişafın təmin olunmasında sessiya iştirakçılarına, muxtar respublikanın hər bir sakininə uğurlar arzulamışdır.

Bununla da altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyası öz işini başa çatdırmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun MƏRUZƏSİ

Hörmətli deputatlar və sessiya iştirakçıları!

2020-ci ilin birinci yarısında ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında ümummilli liderimiz Heydər Əliyevin yoluna sədaqət əsas inkişaf göstəriciləri üzrə müsbət dinamikanın qorunub saxlanılmasına səbəb olmuşdur. Sosial-iqtisadi islahatlar və tikinti-quraşdırma işləri davam etdirilmiş, qarşıya qoyulan vəzifələrin icrası diqqətdə saxlanılmışdır. Əhali rifahının yaxşılaşdırılması, xüsusilə insanların sağlamlığının qorunması və pandemiya ilə mübarizə sahəsində ardıcıl tədbirlər görülmüşdür.

2020-ci ilin ikinci yarısında da Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə islahatlar davam etdirilməli, makroiqtisadi sabitlik qorunub saxlanılmalıdır. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında işə tələbkarlıq artırılmalı, nizam-intizama əməl edilməli, qarşıya qoyulmuş vəzifələr vaxtında icra olunmalıdır.

**Maliyyə Nazirliyi** etibarlı maliyyə nəzarəti sistemi formalaşdırmaqla büdcə xərclərinin icrasına nəzarəti gücləndirməlidir.

**Dövlət Gömrük Komitəsi və Dövlət Vergi Xidməti** tədiyə növləri üzrə vergi və rüsumların vaxtında toplanaraq büdcəyə köçürülməsinə nəzarəti artırmalı, dövlət büdcəsinin proqnoz göstəricilərinin icrası təmin edilməlidir.

**Dövlət Vergi Xidməti Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi** ilə birgə muxtar respublikada nağdsız ödəniş dövriyyəsinin artırılması məqsədilə tədbirlər görməli, kreditlərin təyinatı üzrə istifadəsinə diqqət artırılmalıdır.

Muxtar respublikanın ixrac potensialının artırılması və ixraca dövlət dəstəyinin daha da gücləndirilməsi məqsədilə 2020-ci il **"İxrac" ili** elan edilmişdir. **İqtisadiyyat Nazirliyi** ixracyönümlü istehsalın aparılması məqsədilə sahibkarlara güzəştli maliyyə dəstəyinin göstərilməsini, yeni müəssisələrin yaradılması və ixracın təşviqi ilə bağlı tədbirləri davam etdirməli, pandemiya dövründə ixrac bazarlarında baş verən tendensiyalar təhlil edilməli, yeni ixrac bazarlarının əldə olunması istiqamətində iş aparılmalıdır.

**İqtisadiyyat Nazirliyi Kənd Təsərrüfatı Nazirliyi və Dövlət Gömrük Komitəsi** ilə birgə muxtar respublikada tələbatdan artıq istehsal edilən kənd təsərrüfatı məhsullarını ixraca yönəltməli, **Antiinhisar və İstehlak Bazarına Dövlət Nəzarəti Xidməti** istehlak bazarının tələbinə uyğun rəqabətqabiliyyətli məhsul istehsalını təmin etməli, ailə təsərrüfatları məhsullarının ixracına dəstək göstərilməlidir.

Kənd təsərrüfatı muxtar respublikanın iqtisadiyyatında xüsusi rola malikdir. Bu ilin məhsulu üçün muxtar respublikada 63 min hektardan artıq sahədə əkin aparılmışdır. Hazırda kənd təsərrüfatı məhsullarının yığımı aparılır. **İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri, şəhər və rayon icra hakimiyyətləri** kənd təsərrüfatı məhsullarının yığımının vaxtında başa çatdırılması üçün tədbirlər görməli, yarmarkaların təşkili, soyuducu anbarlara məhsul qəbulu davam etdirilməli və ehtiyatlar yaradılmalıdır.

**Kənd Təsərrüfatı Nazirliyi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti, şəhər və rayon icra hakimiyyətləri** əkinəyararlı torpaqların təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarəti gücləndirməli, torpaqların elektron uçotu və xəritələşdirilməsi işi vaxtında başa çatdırılmalıdır.

**Dövlət Sığorta Xidməti** muxtar respublikada sığorta işini təkmilləşdirməli, maarifləndirmə işlərinə diqqəti artırmalı, könüllü sığortanın tətbiqini və səyyar xidmətin əhatə dairəsini genişləndirməli, aqrar sektorda sığorta işinə marağın artırılması üçün lazımi tədbirlər həyata keçirməlidir.

Əkin sahələrinin su ilə təminatı ərzaq təhlükəsizliyinin təmin olunmasında əsas meyar sayılır. Son illər muxtar respublikada mütəraqqi suvarma sistemlərinin tikilib istifadəyə verilməsi, anbarlarda kifayət qədər su ehtiyatının yaradılması əkin sahələrinin su təminatını yaxşılaşdırmışdır. **Dövlət Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti şəhər və rayon icra hakimiyyətləri** ilə birlikdə suvarma mövsümünün mütəşəkkil keçirilməsini təmin etməli, suvarma suyunun bölgüsünə və ondan səmərəli istifadə olunmasına, torpaqların şoranlaşmasına və eroziyasının qarşısının alınmasına nəzarəti gücləndirməli, qapalı suvarma şəbəkələrinin qurulması payız əkini mövsümünə qədər başa çatdırılmalıdır.

**Dövlət Statistika Komitəsi** Dövlət proqramının icrasını nəzarətdə saxlamalı, statistik məlumatlar vaxtında hazırlanmalı, müqayisəli və təhlilli materiallar işlənərək mətbuatda ictimailəşdirilməlidir.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi** yay mövsümündə yaşıllıqların və meşə fondlarının mühafizəsinə nəzarəti gücləndirməli, ekoloji tarazlığın qorunması ilə bağlı yoxlama-reydləri və maarifləndirici görüşləri davam etdirməli, muxtar respublikanın su mühitinin və onun tərkibinin müəyyənləşdirilməsinə diqqəti artırmalıdır. **Ekologiya və Təbii Sərvətlər Nazirliyi Naxçıvan Yaşıllaşdırma Xidməti** ilə birlikdə payız yaşıllaşdırma mövsümünə hazırlıq görməli, muxtar respublikada ağac və bitki tələbatının yerli istehsal hesabına ödənilməsi üçün "İqlim otağı"nın və tingçilik təsərrüfatlarının imkanlarından geniş istifadə olunmalıdır.

Bu gün baytarlıq təbabətinin inkişafı məqsədilə həyata keçirilən tədbirlərin məntiqi nəticəsidir ki, muxtar respublikada epizootik vəziyyət sabitdir. **Dövlət Baytarlıq Xidməti** bundan sonra da epizootik vəziyyəti nəzarətdə saxlamalı, süni mayalanma işi və mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına diqqət artırılmalıdır.

**"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti** tələbata uyğun müxtəlif təyinatlı müasir texnika və texnoloji avadanlıqların, suvarma sistemlərinin və arıçılıq ləvazimatlarının, eləcə də gübrələrin alınıb gətirilməsini təmin etməli, yeni alınmış texnikalar, əsasən, bu sahədə təcrübəsi olan şəxslərə verilməli və onlardan səmərəli istifadəyə nəzarət olunmalıdır.

Muxtar respublikada aparılan abadlıq-quruculuq tədbirlərinin miqyası ildən-ilə genişlənir. **Dövlət Şəhərsalma və Arxitektura Komitəsi** cari ilin ikinci yarısında da ayrılmış vəsaitdən səmərəli və düzgün istifadə etməli, tikinti işlərinin keyfiyyətlə aparılması təmin olunmalıdır.

Bu gün muxtar respublikada bərpa olunan enerji mənbələrindən istifadəyə üstünlük verilir. Görülən işlərin nəticəsidir ki, artıq muxtar respublikada elektrik enerjisinə olan tələbat yerli istehsal hesabına ödənilməklə yanaşı, həm də ixrac imkanları yaranmışdır. Cari ilin ilk 6 ayında ümumi enerji tələbatının 70 faizdən çoxu bərpa olunan enerji mənbələrinin payına düşmüşdür. **Dövlət Energetika Xidməti** bundan sonra da əhalinin keyfiyyətli enerji ilə təminatını və mütəxəssis hazırlığını diqqətdə saxlamalı, Ordubad və Tivi Su Elektrik stansiyalarının tikintisi davam etdirilməlidir.

**"Naxçıvanqaz" İstismar Xidməti** təbii qazın keyfiyyətlə ötürülməsini və yeni mənzillərin qazlaşdırılmasını diqqətdə saxlamalı, istismar olunan avadanlıqlara mövsümə uyğun texniki qulluq göstərilməlidir.

Muxtar respublikada müasir yol infrastrukturunun, həmçinin nəqliyyat xidmətinin günün tələbləri səviyyəsində qurulması hər il diqqətdə saxlanılır. Magistral və kənd yolları yenidən qurulur, əhali keyfiyyətli sərnişindaşıma xidməti ilə təmin olunur. **Avtomobil Yolları Dövlət Agentliyi** yol tikintisi işlərinin keyfiyyətlə həyata keçirilməsinə diqqəti artırmalı, **Dövlət Nəqliyyat Xidməti** tərəfindən ictimai nəqliyyatda xidmətin səviyyəsi yüksəldilməli, nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət olunmalıdır.

**Rabitə və Yeni Texnologiyalar Nazirliyi** yeni texnologiyaları tətbiq etməklə rabitə və internet xidmətlərinin keyfiyyətini yüksəltməli, maddi-texniki baza gücləndirilməli, ixtisaslı kadr hazırlığı davam etdirilməlidir.

**Təhsil Nazirliyi** növbəti tədris ilinə hazırlığı davam etdirməli, elektron və distant təhsil imkanları təkmilləşdirilməlidir.

**Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi** Naxçıvanşünaslığın tədqiqi ilə bağlı elmi araşdırmaları davam etdirməli, elmi yeniliklərin və innovativ layihələrin istehsalatda tətbiqini həyata keçirməli, Ali Məclisin Sədri yanında Elmin İnkişafı Fondu ilə birgə "Elm festivalı"nın yüksək səviyyədə təşkilini təmin etməlidir. Bölmə Naxçıvan elmi mühitinin beynəlxalq aləmə inteqrasiyasını sürətləndirməli, tanınmış elmi qurumlarla əlaqələri genişləndirməlidir.

Muxtar respublikada fəaliyyət göstərən **ali təhsil müəssisələri** xarici tələbə qəbulunu və qeydiyyatını mövcud vəziyyətə uyğun aparmalı, təhsildə elmi yeniliklər və innovasiyalar tətbiq edilməlidir.

**Səhiyyə Nazirliyi** tibbi xidmətlərin səviyyəsini yüksəltməli, pandemiya şəraitində əhalinin sağlamlığının qorunması sahəsində müəyyənləşdirilən tədbirlər ardıcıl şəkildə icra olunmalı, dezinfeksiya işləri aparılmalıdır. Səhiyyə müəssisələrinin tələbatına uyğun tibbi ləvazimatlar alınmalı, dərman ehtiyatı yaradılmalı, yoluxucu xəstəliklərə qarşı tədbirlər davam etdirməlidir.

**Mədəniyyət Nazirliyi** onlayn tamaşaları, muzeylərdən ekskursiyaları davam etdirməli, mədəni irsimizin və milli dəyərlərimizin təbliği gücləndirilməli, nazirlik tabeliyində olan müəssisələrin fəaliyyətini günün tələbləri səviyyəsində qurmalı, uşaq-musiqi məktəbləri növbəti tədris ilinə hazırlanmalıdır.

**Gənclər və İdman Nazirliyi** "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası istiqamətində işləri davam etdirməli, gənclərlə işə diqqəti artırmalıdır. Nazirlik idman federasiyaları ilə əlaqələri gücləndirməli, açıq hava şəraitində müvafiq idman növləri üzrə muxtar respublika birincilikləri keçirilməlidir.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrasını davam etdirməli, özünüməşğulluq tədbirlərini genişləndirməlidir. Nazirlik sosial qayğıya ehtiyacı olanlara və tənha ahıllara xidmət işini diqqətdə saxlamalı, sosial könüllülərin imkanlarından geniş istifadə olunmalıdır.

Muxtar respublikanın malik olduğu ekoloji mühit, zəngin mədəni irs, təbii müalicə mərkəzləri burada turizmin müxtəlif sahələrinin inkişafına əlverişli şərait yaradır. **Turizm Departamenti** "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulan vəzifələri yerinə yetirməli, daxili turizmin inkişafı istiqamətində işlər görülməli, turlar təşkil edilməli, Naxçıvanla bağlı internet saytında və sosial mediada geniş təbliğat işi aparılmalıdır.

**Gənclər Fondu** müxtəlif layihələr çərçivəsində gənclərin asudə vaxtlarının səmərəli təşkili, istedadlarının üzə çıxarılması və intellektual inkişafı sahəsində tədbirlər görməli, muxtar respublikada könüllülük fəaliyyətini geniş təşviq etməli, Naxçıvan könüllüləri barədə elektron informasiya sistemi və məlumat bankı yaratmalıdır.

**Dövlət Sosial Müdafiə Fondu** publik hüquqi şəxsi tərəfindən pensiya təyinatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada aparılmalı, əmək fəaliyyətinə yeni başlayan işçilər fərdi uçot sistemində qeydiyyata alınmalı və sosial sığorta şəhadətnamələri ilə təmin olunmalı, elektron xidmətlərin əhatə dairəsi genişləndirilməlidir.

Muxtar respublikada icbari tibbi sığortanın tətbiqi səhiyyə sahəsində aparılan islahatların tərkib hissəsi kimi əhalinin keyfiyyətli tibbi xidmətlə təminatına hesablanmışdır. **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi** səhiyyə müəssisələri ilə qarşılıqlı fəaliyyətini davam etdirməli, icbari sığorta ilə bağlı mərkəzləşmiş məlumat bazasını və vahid elektron idarəetmə sistemini təkmilləşdirməlidir.

**Yaradıcılıq birlikləri** fəaliyyətlərini müasir tələblər səviyyəsində qurmalı, muxtar respublikanın quruculuq və inkişaf salnaməsinə öz yaradıcı töhfələrini verməlidirlər.

Muxtar respublikada aparılan abadlıq-quruculuq işləri, həyata keçirilən islahatlar bütün yaşayış məntəqələrini əhatə etmiş, rayon mərkəzlərində, qəsəbə və kəndlərdə müasir infrastruktur yaradılmışdır. **Şəhər və rayon icra hakimiyyətləri** bu imkanlardan səmərəli istifadə etməli, vətəndaşlarla iş gücləndirilməli, müraciətlərə vaxtında baxılmalı və müvafiq köməklik göstərilməli, abadlıq-təmizlik işlərinə nəzarət olunmalıdır.

İqtisadi inkişafın davamlı xarakter alması, yeni iş yerlərinin açılması, gənclərin səmərəli məşğulluğunun təmin edilməsi muxtar respublikada cinayətkarlığın aşağı səviyyədə olmasını təmin etmişdir. **Hüquq-mühafizə orqanları** bundan sonra da ictimai asayişin və sabitliyin qorunmasına diqqəti artırmalı, maarifləndirmə-profilaktika tədbirləri davam etdirilməlidir.

**Ordu, birləşmə və hərbi hissələrdə** döyüş hazırlığının artırılması, ehtiyatların qorunub saxlanması, şəxsi heyətin sağlamlığının qorunması diqqətdə saxlanılmalı, Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının birgə və qarşılıqlı fəaliyyəti davam etdirilməlidir.

**Fövqəladə Hallar Nazirliyi** yanğın təhlükəsizliyinin təmin edilməsi, xüsusilə taxıl sahələrinin biçindən sonra yandırılmaması istiqamətində maarifləndirmə tədbirlərini davam etdirməli, yaşayış məntəqələrində qrafik əsasında dezinfeksiya işləri aparılmalıdır.

**Ədliyyə Nazirliyi** məhkəmə qərarlarının vaxtında icra olunmasını və Məhkəmə Ekspertizası Mərkəzinin fəaliyyətini diqqətdə saxlamalı, aidiyyəti qurumlarla birgə bələdiyyələr tərəfindən torpaqların icarəyə verilməsi zamanı qanunvericiliyə əməl edilməsinə nəzarət etməlidir.

**Dövlət Gömrük Komitəsi** daxili bazarın qorunması istiqamətində tədbirlərini davam etdirməli, xarici ticarət iştirakçıları olan sahibkarlıq subyektləri ilə əlaqələri gücləndirməlidir.

**Dövlət Qulluğu Məsələləri üzrə Komissiya** dövlət qulluğuna və digər orqanlara qəbul imtahanlarının dövriliyini təmin etməli, kadr hazırlığı üzrə kursların təşkilini və test bankının yenilənməsini diqqətdə saxlamalıdır.

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti** çağırışı qanunvericiliyə uyğun təşkil etməli, hərbi vəzifəlilərin qeydiyyat-uçot məsələlərinə diqqətlə yanaşmalıdır.

Muxtar respublikanın **kütləvi informasiya vasitələrində** informasiya-məlumatlandırma işinin keyfiyyəti artırılmalı, tarixi-mədəni irsimiz, milli dəyərlərimiz, adət-ənənələrimiz və Naxçıvanın müasir inkişafı geniş təbliğ olunmalıdır.

Hörmətli sessiya iştirakçıları!

Ulu öndərin yolunun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi imkan verəcəkdir ki, Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası 2020-ci ili də bütün sahələrdə uğurlu nailiyyətlərlə başa vursun. Məqsədimiz ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu inkişaf, sabitlik və rifahı daha da möhkəmləndirməkdir. Bu yolda və qarşıya qoyulan vəzifələrin icrasında hər birinizə uğurlar arzulayır, çıxışımı ulu öndərin fikirləri ilə tamamlayıram: ***"Hamı üçün bir istiqamət olmalıdır: Azərbaycanın müstəqilliyini qorumaq, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, Azərbaycan Respublikasında siyasi sabitlik yaratmaq və Azərbaycan Respublikası vətəndaşlarının rahat yaşaması üçün şərait yaratmaq".***

Sağ olun!

***Qədim Naxçıvan yüzillərboyu Azərbaycan dövlətçilik ənənələrinin yaşadıldığı dayaq mərkəzi, milli birliyin, həmrəyliyin dəyişməz ünvanı kimi tarixdə öz yerini almışdır. 1990-1993-cü illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin xilaskarlıq missiyasını, müstəqil Azərbaycanın dövlət quruculuğu prosesini məhz Naxçıvandan başlaması da, bu mənada, taleyin hökmü idi.***

# Xilaskarlıq missiyasının başlandığı gün

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrünü belə xarakterizə edir: ***“Tale ulu öndəri bu regiona göndərməklə Naxçıvanı işğal olunmaq, əhalisini isə qaçqın ömrü yaşamaq təhlükəsindən hifz etdi. Azərbaycanın bu qədim torpağını xilas edən ulu öndər özünə Naxçıvan boyda abidə ucaltdı. Azərbaycanın siyasi tarixində parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı...”***

Bu, o illər idi ki, qədim diyarın böyük xilaskara, xilaskarlıq missiyasını həyata keçirəcək dahi şəxsiyyətin isə Onu sevən, ətrafında sıx birləşərək müqəddəs amallara çatmaq üçün hər cür çətinliyə səbir edən, durmadan çalışan sədaqətli insanlara ehtiyacı var idi. Elə bir dövr yaşanmaqda idi ki, qədim Oğuz yurdunu təhlükələrdən xilas etmək, onu qorumaq, bütün istiqamətlər üzrə müstəqil dövlət quruculuğu kimi taleyüklü əhəmiyyətə malik mühüm bir prosesin inamla aparıldığı siyasi-ideoloji mərkəzə çevirmək lazım idi. Çünki ötən əsrin 80-ci illərinin sonlarında muxtar respublikanın sərhədyanı kəndləri erməni yaraqlıları tərəfindən hücuma məruz qalmış, dincliyi əlindən alınmışdı. Blokadaya salınan Naxçıvanda iqtisadi və siyasi böhran daha da dərinləşmişdi.

Ulu öndər Heydər Əliyevin belə bir dövrdə – 1990-cı il iyulun 20-də Moskvadan Bakıya, 2 gün sonra isə muxtar respublikaya qayıdışı naxçıvanlılara böyük ümid və sevinc bəxş etdi. Bu qayıdış insanların Azərbaycanın bütün bəlalardan xilas olacağına ümidlərini artırdı. Zəngin dövlətçilik təcrübəsinə malik olan qüdrətli şəxsiyyətin, ömrünü Vətənə, xalqına həsr edən əvəzedilməz liderin doğulub boya-başa çatdığı diyara qayıdışı əhali tərəfindən sevinclə qarşılandı. Naxçıvanlılar əmin idilər ki, bu yurdu yalnız ulu öndər xilas edə bilər. Məhz elə bu səbəbdən o dövrün mətbuatı yazırdı ki, əzablı və məşəqqətli günlərini yaşayan Naxçıvanı düçar olduğu ağır bəlalardan hifz etməkdən ötrü Tanrı dahi və müdrik insanı öz doğma yurduna xilaskar göndərmişdi.

Ümummilli liderimiz sonralar bu barədə deyəcəkdi: ***“1990-cı ilin yayı idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma eyni zamanda özümü çox rahat hiss etdim. Moskvada məni təqib edirdilər. Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilmədisə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illər çəkdiyim bütün əzab-əziyyəti unutdum. Görünür, mənim Naxçıvana gəlişim taleyin işi imiş”.***

Naxçıvana gəldikdən qısa müddət sonra – 1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə xalq görkəmli dövlət xadimi Heydər Əliyevin namizədliyini yekdilliklə irəli sürərək muxtar respublikanın, ümumilikdə isə Azərbaycanın qurtuluşunu məhz ümummilli liderimizin yenidən siyasi hakimiyyətə qayıdışında gördü. Ulu öndər 340 nömrəli Nehrəm Seçki Dairəsindən Azərbaycan parlamentinə, 2 nömrəli seçki dairəsindən isə Naxçıvan parlamentinə deputat seçildi. 1990-cı ilin 17 noyabrında Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyası görkəmli dövlət xadiminin sədrliyi ilə öz işinə başladı. Həmin sessiyada “Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında”, “Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında”, “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında”, “1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” və başqa məsələlərlə bağlı tarixi qərarlar qəbul edildi. Sessiya Naxçıvan MSSR adından “Sovet”, “Sosialist” sözlərinin çıxarılması, Naxçıvanın Ali Sovetinin adını dəyişərək onun bundan sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olundu.

Tarixin ən ağır, məşəqqətli günlərində naxçıvanlılar ulu öndərə böyük sevgi və ehtiram bəsləyərək dünya şöhrətli siyasətçinin doğma diyarımıza rəhbərlik etməsini arzulayırdılar. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il sentyabrın 3-də keçirilən fövqəladə sessiyasında deputatların və iclas keçirilən binanın qarşısına toplaşan minlərlə insanın təkidi ilə ümummilli lider Heydər Əliyev Ali Məclisin Sədri seçildi. Bununla da Azərbaycan tarixində ulu öndərin adı ilə bağlı olan daha bir möhtəşəm səhifə açıldı. Sessiyadakı ilk çıxışında dahi şəxsiyyət öz taleyini xalqa tapşırdığını bildirərək demişdir: ***“Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. ... Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm”.***

Görkəmli dövlət xadimi Heydər Əliyev Ali Məclisin Sədri kimi siyasi fəaliyyət göstərdiyi dövrdə mahiyyət və miqyasına görə əsrlərə bərabər işlər gördü, “Hakimiyyət xalq üçündür!” prinsipini reallığa çevirdi. Ümummilli lider real düşmən təcavüzünə məruz qalan, blokada şəraitində yaşayan Naxçıvanın, ilk növbədə, müdafiə qabiliyyətini gücləndirməyə başladı. 1991-ci il sentyabrın 7-də Ali Məclis “Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında” Qərar qəbul etdi. Bu qərar Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərin başlanğıcı idi. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanması təmin olundu, əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və ümummilli liderə olan sonsuz inamı nəticəsində muxtar respublikada Milli Ordu yaradıldı, Naxçıvanın müdafiə potensialı gücləndirildi, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası Naxçıvanda qoyuldu.

O dövrdə Azərbaycan xalqının birliyinə nail olmadan və bu həmrəyliyi sağlam ideologiya əsasında yaratmadan ölkəni düşdüyü bəlalardan qurtarmaq və inkişaf yoluna çıxarmaq mümkün deyildi. Məhz buna görə də ulu öndər Ali Məclisin Sədri işləyərkən dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalqa xidmət uğrunda birləşməyə səslədi. Bu baxımdan 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən “31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında” Qərarın qəbul edilməsi xüsusi əhəmiyyətə malikdir. Bununla da 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd olundu. Həmçinin 20 Yanvar faciəsinə, Xocalı soyqırımına siyasi qiymət verilməsi tələbi də ulu öndər Heydər Əliyev tərəfindən gündəmə gətirildi.

Təcavüzkar Ermənistanın blokadaya saldığı, mərkəzi hakimiyyətin isə biganə münasibət göstərdiyi Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi əlaqələrin qurulması sahəsində də mühüm addımlar atılmalı, blokadanın vurduğu ciddi zərbələrin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilməli idi. Bu məsələni xüsusilə diqqətdə saxlayan görkəmli dövlət xadimi Heydər Əliyev 1992-ci ildə qonşu İran İslam Respublikasına və Türkiyə Cümhuriyyətinə səfərlər etdi, bu zaman keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalandı. Həmin protokollara əsasən hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər quruldu, Araz çayı üzərində “Ümid” körpüsü tikilib istifadəyə verildi, Sədərək və Culfa gömrük-keçid məntəqələri yaradıldı. 1993-cü il fevralın 5-də Türkiyə Cümhuriyyətinin, martın 8-də isə İran İslam Respublikasının Naxçıvanda konsulluqları fəaliyyətə başladı. Ümummilli liderimizin Naxçıvanın xilası, müstəqil dövlətçilik naminə həyata keçirdiyi islahatlar, gördüyü işlər ozamankı Azərbaycan iqtidarı tərəfindən qısqanclıqla qarşılanırdı. Bütün bunlar bir məqsədə – Heydər Əliyev ideyalarının, xilaskarlıq missiyasının qarşısını almağa xidmət edirdi. Lakin buna nail olmaq mümkün deyildi. Ona görə ki, bütün Azərbaycan Heydər Əliyev ideyalarının təntənəsinə, qələbəsinə inanır, öz nicatını yalnız bu yolda görürdü.

Muxtar respublikada iqtisadi inkişafın aparıcı sahələrindən olan kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi də həmin illərdə diqqət mərkəzində idi. Ulu öndərin təşəbbüsü ilə Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında” və “Rentabelli işləyən kolxoz və sovxozların ictimai malqarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarlar qəbul edildi. Həmin qərarların qəbul edilməsi hazırkı dövrdə muxtar respublika iqtisadiyyatının aparıcı sahələrindən biri olan kənd təsərrüfatının inkişafını şərtləndirən mühüm amilə çevrildi, Azərbaycanda torpaq islahatına məhz Naxçıvandan başlanıldı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov o dövrdə Naxçıvanda iqtisadiyyatın inkişafı istiqamətində həyata keçirilən tədbirlərin bəhs edərkən demişdir: ***“Bu dövrdə müstəqilliyin bərpası istiqamətində görülən tədbirlər təkcə siyasi müstəvidə getmirdi. Yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılan iqtisadi model də formalaşdırılmış, aqrar islahatların həyata keçirilməsi barədə tarixi qərarlar qəbul edilmiş, blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülmüşdü. Qonşu Türkiyə və İranla iqtisadi, mədəni, humanitar əlaqələr yaradılmışdı. Bu dövrün Naxçıvanı yenidən 1969-cu ildən başlanan Heydər Əliyev quruculuq xəttinə, inkişafın Heydər Əliyev yoluna qayıdan ilk region olmaqla, Azərbaycanda böyük nümunə gücünə malik idi”.***

Xalqımızın güvəncinə çevrilən ümummilli liderimizə 1992-ci ilin 16 oktyabrında ölkə ziyalıları “Azərbaycan sizi gözləyir” adlı tarixi müraciət etdilər. Xalqın istək və arzularının, son ümidlərinin ifadəsi olan bu müraciətə ümummilli lider Heydər Əliyev həmin ayın 24-də mətbuatda dərc olunmuş “Yeni, müstəqil Azərbaycan uğrunda” sərlövhəli cavab məktubunda deyirdi: ***“Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər”.*** Azərbaycanın müxtəlif bölgələrindən Naxçıvana gələn 550-dən artıq nümayəndənin iştirakı ilə 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Blokada çətinlikləri şəraitində yaşayan Naxçıvanda təməli qoyulan bu partiya hazırda öz sıralarında milli ruhlu insanları birləşdirən, müstəqillik, dövlətçilik, qanunçuluq, Azərbaycançılıq, vətənpərvərlik ideyalarına mənsub olan kütləvi siyasi təşkilata çevrilmişdir.

Bu, bir reallıqdır ki, ümummilli liderin Naxçıvana qayıtması, Ali Məclisin Sədri seçilməsi və bu vəzifədəki səmərəli fəaliyyəti təkcə muxtar respublikada yox, bütövlükdə, Azərbaycan miqyasında parlaq gələcəyə olan inam hissini alovlandırmışdı. Ölkəmizin digər regionlarında yaşayan insanlar xalqımızın böyük oğlu Heydər Əliyevə teleqramlar, məktublar göndərir, xalqın üzləşdiyi bəlaların məhz onun müdrik və uzaqgörən siyasəti nəticəsində həll olunacağına inamlarını ifadə edirdilər. Xalqın böyük inam və sevgisinin əyani ifadəsi olan bu məktublarda, teleqramlarda o zaman Azərbaycanı “idarə edənlərin” özbaşınalığından, siyasi səriştəsizliklərindən, xalqın dərdinə şərik çıxmamalarından bəhs olunurdu. Görkəmli dövlət xadimi təkcə Naxçıvanda yox, Azərbaycanın digər regionlarında yaşayan həmvətənlərimizin də dərdlərinə şərik olmuş, onların problemlərinin həllinə çalışmışdır.

1993-cü ildə Azərbaycan xaosa sürükləndiyi, parçalanma, yox olma təhlükəsi ilə üz-üzə qaldığı bir dövrdə xalqımız milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün görkəmli dövlət xadimi Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Xalqın davamlı çağırışlarını nəzərə alan dahi öndərin Naxçıvandan Bakıya qayıdışı xalqımızın çoxəsrlik tarixinə möhtəşəm hadisə kimi daxil oldu. 15 iyun 1993-cü il Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi həkk edildi. Ulu öndər qısa müddətdə ölkədə baş alıb gedən hərc-mərclik və anarxiyanı aradan qaldırdı, qanunun aliliyi təmin olundu, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyamız qəbul edildi, müasir idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqini şərtləndirən qlobal layihələr reallaşdırıldı, ölkənin beynəlxalq aləmdə nüfuzu möhkəmləndi. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi nəhəng neft-qaz layihələrinin əfsanədən reallığa çevrilməsi müstəqil Azərbaycanın gələcəyi, Azərbaycan xalqının xoşbəxtliyi uğrunda həyata keçirilmiş tədbirlər kimi tarixə düşmüş, ölkənin beynəlxalq aləmdə nüfuzu möhkəmlənmiş, bütün sahələrdə böyük uğurlar qazanılmışdır. Ötən illər bir daha təsdiq etdi ki, Azərbaycanın nicatı və tərəqqisi məhz ulu öndər Heydər Əliyev ideyalarında, Heydər Əliyev yolundadır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ümummilli liderimizin ikinci dəfə siyasi hakimiyyətə qayıdışının tarixi əhəmiyyətindən danışarkən demişdir: ***“Millətlərin gücü və yenilməzliyi onların liderlərindən asılıdır. Lideri olmayan ölkə, xalq müstəqillik əldə edə və yaxud əldə olunmuş müstəqilliyi qoruyub saxlaya bilməz. Azərbaycanın müasir tarixi dəfələrlə sübut etmişdir ki, xalqın gücü ümummilli lider Heydər Əliyevdə olduğu kimi, ümummilli lider Heydər Əliyevin də gücü Azərbaycan xalqındadır. Xalqın təkidi tələbi ilə 1993-cü il iyunun 15-də ulu öndərimizin ikinci dəfə ali hakimiyyətə qayıdışı Azərbaycanı dağılmaq, bir dövlət kimi siyasi xəritədən silinmək təhlükəsindən xilas etdi. 15 iyun ən yeni tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu”.***

Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi xəttin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində azadlıq və müstəqilliyimiz daimi və əbədi olmuşdur. Xalqımızın firavan gələcəyinin təminatına hesablanmış praqmatik siyasi strategiya sayəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş, ölkəmizin nüfuzu daha da artmışdır.

Dahi şəxsiyyətin uzun illər üçün müəyyənləşdirilmiş ideyaları Naxçıvanda da yeni inkişaf erasının başlanmasına rəvac verdi, bu siyasətin uğurlu davamı nəticəsində əsl tərəqqiyə nail olundu. Son 25 ildə muxtar respublikanın keçdiyi inkişaf yolu ulu öndərin ideyalarına sadiqliyin təcəssümüdür. Ümummilli lider Heydər Əliyev tərəfindən dövlət müstəqilliyimizin əsasının Naxçıvanda qoyulması qədim diyarda tarixən mövcud olmuş zəngin dövlətçilik ənənələrinin davamı kimi də təqdirəlayiqdir. Onun 1990-cı il iyulun 22-də Naxçıvan Muxtar Respublikasına qayıdışı və buradakı fəaliyyəti 70 illik imperiya əsarətinə son qoyan Azərbaycanın qurtuluş və müstəqillik tarixində mühüm mərhələdir. Bu tarixdən ötən 30 il ərzində ölkəmizin siyasi, iqtisadi, mədəni və digər sahələrdə qazandığı uğurlar Heydər Əliyev siyasi xəttinin təntənəsidir. Ümummilli liderimiz möhkəm, etibarlı təməl yaratmışdır. Ölkə rəhbəri cənab İlham Əliyevin dediyi kimi: ***“Müasir tariximiz 1993-cü ildən başlayır. O ildən Azərbaycan böyük və uğurlu yol keçmişdir, dövlətçiliyin əsasları qoyulmuşdur. Ulu öndərin xalq qarşısında göstərdiyi xidmətlər misilsizdir. Azərbaycan xalqı Heydər Əliyev siyasətini qəlbində yaşadır və yaşadacaqdır”.***

**“Şərq qapısı”**

Azərbaycan milli mətbuatı — 145

# Muxtar respublika mətbuatı böyük inkişaf yolu keçib

*Ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" 2020-ci il 30 iyun tarixli Sərəncamı Həsən bəy Zərdabi tərəfindən əsası qoyulan milli mətbuatımızın keşməkeşli yoluna yenidən işıq tutmaqla həm də dövlətimizin mətbuat nümayəndələrinə qarşı sonsuz diqqət və qayğıkeşliyini bir daha göstərdi. Sərəncamda deyilir:* ***"Ölkəmizdə müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılır. Bununla belə, kütləvi informasiya vasitələri də ölkəmizdə həyata keçirilən köklü islahatlardan kənarda qalmamalı, kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşmalı, cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması sahəsində öz səylərini daha da gücləndirməlidir. Modernləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi medianın inkişafını şərtləndirən başlıca amillər olmalıdır".***

145 il əvvəl iyulun 22-də görkəmli maarifpərvər ziyalı Həsən bəy Zərdabi tərəfindən milli mətbuatımızın əsasının qoyulması, bütövlükdə, Azərbaycan ictimai-siyasi fikir tarixində mühüm hadisə idi. "Əkinçi" qəzetinin nəşri milli şüurun təşəkkülünə, nadanlıq və cəhalətə qarşı mübarizənin güclənməsinə, mədəniyyətimizə sahib çıxmağa, milli əqidəmizin təkamülünə rəvac vermişdir. XX əsrin əvvəllərində mətbuat orqanları Azərbaycanda milli azadlıq ideyalarının əsas istiqamətverici qüvvəsini təşkil etmiş, milli oyanış, milli özünüdərk proseslərinin aparıcı vasitələrindən biri olmuşlar. Lakin ötən əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanın zorla sovetləşdirilməsi ilə milli mətbuatımız da sovet imperiyasının siyasi-ideoloji nəzarəti altında fəaliyyət göstərmişdir. Yalnız görkəmli dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyev 14 iyul 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəldikdən sonra milli demokratik mətbuatın başlıca prinsipləri formalaşmağa başlamışdır. Ümummilli lider demokratik ruhlu rəhbər kimi mətbuata müsahibəsində bu və digər nöqsanları açıq qeyd edir, sovet cəmiyyətinin eybəcərliklərini açıq şəkildə deməkdən çəkinmirdi.

Çoxəsrlik tarixə və zəngin ənənələrə malik milli mətbuatımızın müstəqillik illərindəki inkişafı bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan jurnalistikası söz, fikir, mətbuat azadlığına məhz ulu öndərin zəngin dövlətçilik təcrübəsi sayəsində nail olub. Görkəmli dövlət xadiminin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra ölkədə mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qabaqcıl ictimai fikrin, milli mətbuatın inkişafında, müstəqil dövlət quruculuğunda mühüm rol oynayan kütləvi informasiya vasitələrinin cəmiyyətdə ictimai nüfuzunun artması, fəaliyyət dairəsinin genişlənməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, qəzetlərin maddi-texniki təchizatının yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görüldü. Bu sahədə möhkəm qanunvericilik bazasının yaradılması mətbuatın inkişafında ciddi dönüşə səbəb oldu. ***"Demokratiyanın, siyasi plüralizmin və vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunan söz və mətbuat azadlığının başlıca daşıyıcıları kütləvi informasiya vasitələridir"***, – deyən ümummilli liderin uzaqgörənliyi sayəsində ölkə mətbuatında söz, fikir və əqidə azadlığının təmin olunması üçün müvafiq qanunvericilik aktlarında dəyişikliklər aparıldı, ölkəmiz mövcud olan beynəlxalq konvensiyalara və sazişlərə qoşuldu. Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşların söz, məlumat toplamaq, öz rəyini sərbəst ifadə etmək, yaradıcılıq azadlıqları təsbit olundu. Ulu öndərin "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 6 avqust tarixli Fərmanı ilə ölkəmizdə senzuranın ləğv edilməsi olduqca cəsarətli, prinsipial addım idi.




Bu gün ölkəmizdə söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət qabaqcıl demokratik ölkələrlə müqayisə edilə bilər. Ölkə Prezidenti mətbu nəşrlərin sərbəst fəaliyyəti, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələri üçün bütün imkanları yaratmışdır. Azərbaycan milli mətbuatının yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, yubiley münasibətilə Azərbaycan mətbuat işçilərinin təltif olunması, onlara fəxri adlar verilməsi, habelə kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi jurnalistlərin əməyinə dövlətin yüksək qiymətinin təcəssümüdür. Ölkə başçısı cənab İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları mətbuata göstərilən dövlət qayğısının davamı kimi mühüm əhəmiyyət daşıyır. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Sərəncamı da məhz ölkəmizdə kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasında əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş kütləvi informasiya orqanlarını da əhatə etmiş, azad mətbuatın formalaşmasına şərait yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 29 mart tarixli "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" Sərəncamı muxtar respublikanın kütləvi informasiya vasitələrinin fəaliyyətini genişləndirmiş, mətbuatın inkişafı sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, 2007-ci ildə isə Televiziya və Radio Şurasının yaradılması bu sahənin inkişafını keyfiyyətcə yeni mərhələyə yüksəltmişdir. 2010-cu ildə "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni binanın istifadəyə verilməsi və müasir mətbəə avadanlıqlarının quraşdırılması qəzetlərin günün tələblərinə uyğun nəşrinə şərait yaratmışdır. Muxtar respublikada bütün qəzet və jurnallar bu gün yüksək poliqrafik keyfiyyətlə nəşr olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə mətbuat sahəsində çalışanların əməkhaqları artırılmış, əməyi ilə fərqlənən jurnalistlər fəxri adlara layiq görülmüşlər. Hazırda muxtar respublikada "Şərq qapısı" ilə yanaşı, 8 şəhər və rayon qəzeti, universitet televiziya və radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio və 6 nəşriyyat fəaliyyət göstərir, kütləvi informasiya orqanlarında 400-dən artıq əməkdaş çalışır.

Sürətli internetə çıxış imkanlarının yaradılması və rəqəmsal yayıma keçid Naxçıvanın informasiya blokadasının yarılmasına, qədim diyarın müasir sosial-iqtisadi inkişafı, tarixi və turizm potensialı haqqında məlumatların oxucu, tamaşaçı və dinləyicilərə daha operativ çatdırılmasına imkan verir.

Ali Məclis Sədrinin mətbuat orqanlarına göstərdiyi hərtərəfli qayğısı kütləvi informasiya vasitələrində keyfiyyət dəyişikliyinin yaranmasına səbəb olmuşdur. Bunun nəticəsidir ki, qəzetlərin maddi-texniki bazası mərhələli şəkildə möhkəmləndirilmiş, yaradıcılıq imkanları artırılmışdır. Bu gün Naxçıvan Dövlət Teleradiosu, o cümlədən "Naxçıvanın səsi" radiosu və "Kanal 35" televiziyası ən müasir rəqəmsal bazaya malikdir. Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binası yenidən qurulmuş, yeni nəsil rəqəmsal teleradio avadanlıqları quraşdırılmışdır. Həmçinin Naxçıvan Dövlət Televiziyası və Radiosunun efir vaxtı 4 saatdan 19 saatadək artırılmışdır. Cari il aprel ayının 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə 22 adda, 91 min manat dəyərində yeni çəkiliş və efir avadanlıqlarının alınması isə teleradionun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamıdır. 2012-ci ildən etibarən "Şərq qapısı" qəzetinin internet saytı fəaliyyətə başlamış, qəzetin elektron arxiv bazası yaradılmışdır. Sayt 2019-cu ildə tamamilə yenilənmiş, müasir tələblərə cavab verəcək formaya salınmışdır. 2016-cı ildə isə Naxçıvan Dövlət Televiziyasının saytı istifadəyə verilmiş və televiziya internet üzərindən yayıma başlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 6 fevral tarixli Sərəncamına əsasən "Nuhçıxan" İnformasiya Agentliyi yaradılmış, agentliyin saytı hazırlanmışdır. "Nuhçıxan" İnformasiya Agentliyi və onun saytı ən mühüm informasiyaları, şərh və rəyləri, analitik məqalələri, foto və videoinformasiyaları, rəsmi materialları üç dildə dünyaya çatdırmaq kimi uğurlu fəaliyyət göstərir. "Nuhçıxan" İnformasiya Agentliyinin uğurlu fəaliyyəti Naxçıvanın informasiya blokadasının yarılmasına, qədim diyarın müasir sosial-iqtisadi inkişafı, tarixi və turizm potensialı haqqında məlumatların geniş oxucu, tamaşaçı və izləyici auditoriyasına çatdırılmasına istiqamətlənmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 18 may tarixli Sərəncamına əsasən muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarında mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vəzifələr təsis olunmuşdur. Bununla da dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında informasiya siyasətinin həyata keçirilməsində yeni mərhələnin əsası qoyulmuşdur. Eyni zamanda informasiya ehtiyatlarının təhlükəsizliyinin təmin olunması sahəsində konkret istiqamətlər müəyyənləşdirilmişdir. Muxtar respublikanın şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə müasir poçt xidmətlərinin təşkil olunması dövri mətbuatın oxuculara vaxtında çatdırılmasını təmin edir. Bütün bunlar insanların informasiya əldə etmək hüququnun təmin olunması sahəsində görülən işlərin tərkib hissəsidir. Digər bir tərəfdən informasiya cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikada internet şəbəkəsinin əhatə dairəsini xeyli genişləndirmişdir. Artıq ən ucqar kəndlərdə belə, genişzolaqlı internet, eləcə də IP və rəqəmsal televiziya xidmətləri göstərilir. "Naxtel" mobil operatorunun fəaliyyətə başlaması isə Naxçıvanda 4G internetdən istifadəyə geniş imkanlar açmışdır. Bir zamanlar informasiya blokadasına salınan Naxçıvan bu gün dünyanın hər yerində tanınır, ölkə və dünya mediasında muxtar respublika haqqında müxtəlif dillərdə məlumatlar yayımlanır. Muxtar respublikada baş verən yeniliklər, sosial-iqtisadi inkişaf, ictimai-mədəni hadisələr, beynəlxalq tədbirlər, diyarımızın turizm potensialı haqqında materiallar geniş tamaşaçı, dinləyici, izləyici və oxucu auditoriyasına çatdırılır. Həmçinin hər il onlarla xarici jurnalist Naxçıvanda olur, qədim diyarla bağlı silsilə yazı və verilişlər hazırlayırlar. Bütün bunlar muxtar respublikada söz və mətbuat azadlığının, demokratik prinsiplərin bərqərar olmasına, kütləvi informasiya vasitələrinin fəaliyyətinə göstərilən dövlət qayğısının bəhrələridir.

Sürətli internet təminatı sosial şəbəkələrdən sərbəst istifadəyə imkan verir. Artıq muxtar respublikada kütləvi informasiya vasitələrinin, eləcə də yüz minlərlə sakinin "Youtube", "Facebook", "Instagram" və digər sosial şəbəkələrdə səhifələri vardır. Bu da informasiyaların daha operativ əldə edilməsi ilə yanaşı, muxtar respublikanın tarixi, mədəniyyəti, turizm potensialı və müasir inkişafı haqqında təbliğat işinin aparılmasına da şərait yaradır.

2019-cu il də muxtar respublika mətbuatında çox əlamətdar hadisələrlə yadda qalmışdır. Belə ki, kütləvi informasiya vasitələrinə dövlət qayğısının növbəti ifadəsi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 19 sentyabr tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmışdır. Sentyabrın 27-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu müşahidə şurasının ilk iclası və media nümayəndələri ilə görüş keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Sosial-iqtisadi inkişaf, ictimai həyatın bütün sahələrinin yeniləşdirilməsi cəmiyyətin informasiyaya olan tələbatının daha dolğun ödənilməsini, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşdirilməsini zəruri edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 19 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da muxtar respublikanın mətbuat tarixində yeni inkişaf mərhələsinin əsasını qoymuşdur".***

Ötən il Naxçıvan Mətbuat Şurasının Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv olması ilə bağlı ikitərəfli memorandumun imzalanması naxçıvanlı jurnalistlərin dünyada baş verən prosesləri daha yaxından izləmələrinə geniş şərait yaratmışdır. Həmçinin Naxçıvan mətbuatının dünya mediasının tərkib hissəsi olaraq daha da inkişaf etməsinə yeni imkanlar açmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun tabeliyinə verilmiş, redaksiyanın yeni nizamnaməsi və ştat strukturu təsdiq olunmuşdur. Bununla yanaşı, redaksiyanın nəzdindəki "Kanal 35" televiziyası və "Naxçıvanın səsi" radiosunun efir vaxtı 8 saat müəyyənləşdirilmiş, kadr islahatı aparılmışdır. Televiziya və Radio Verilişləri Redaksiyasının yenidən təşkil olunması, buradakı struktur dəyişikliyi muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafı, teleradio verilişlərinin keyfiyyətinin yüksəldilməsi istiqamətində atılan mühüm addımlardandır.

Jurnalist kadrların hazırlanması, gənc jurnalistlərin işə cəlb olunması da mətbuatın inkişafında mühüm amildir. Naxçıvan Dövlət Universitetində Jurnalistika və kitabxanaçılıq kafedrası fəaliyyət göstərir, hər il onlarla gənc jurnalist yetişir. Həmçinin buradakı Media mərkəzində fəaliyyət göstərən "Universitet" televiziyası və "Nuhçıxan" radiosunda gənc jurnalistlər nəzəri biliklərlə yanaşı, ilkin peşə vərdişlərinə yiyələnir, ixtisaslı kadr kimi Naxçıvan mətbuatına öz töhfələrini verirlər. Muxtar respublikanın media əməkdaşları hər il milli mətbuatımızın yaranması gününü yüksək əhval-ruhiyyə ilə qeyd edirlər, bu əlamətdar hadisə ilə bağlı yaradıcılıq müsabiqələri keçirilir, qələm sahiblərinin əməyi qiymətləndirilir.

Naxçıvan mətbuatı Ali Məclis Sədrinin verdiyi dəyərli tövsiyə və tapşırıqları, müəyyənləşdirdiyi fəaliyyət prinsiplərini rəhbər tutaraq bundan sonra da müstəqil dövlət quruculuğu, dövlətçilik, vətənpərvərlik, maarifləndirmək uğrunda yorulmaz fəaliyyət göstərəcək.

**"Şərq qapısı"**

ŞƏRQ qapısı

**Baş redaktor:**
MEHRİBAN SULTANOVA

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ceyhun Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 537